**AZƏRBAYCAN KREDİT BANKI**

«Azərbaycan Kredit Bankı» ASC-nin
Səhmdarlarının Ümumi Yığıncağının
"18" yanvar 2008-ci il tarixli
iclasında təsdiq edilmişdir.

Protokol № 01

İclasın Sədri R.Ə.Şirinov

# İDARƏ HEYƏTİNİN
# ƏSASNAMƏSİ

BAKI-2008

## 1. Ümumi müddəalar

1.1. Bu əsasnamə Azərbaycan Respublikası qanunvericiliyinin və "Azərbaycan Kredit Bankı" Açıq Səhmdar Cəmiyyətinin (irəlidə "Bank" adlanacaq) Nizamnaməsinin müddəaları əsasında tərtib edilmişdir.

1.2. Bankın İdarə Heyəti onun məsul icra orqanıdır. İdarə Heyəti bankın idarə olunması və cari fəaliyyətinin həyata keçirilməsi, o cümlədən Strateji (Biznes) Planın yerinə yetirilməsi üçün məsuliyyət daşıyır.

1.3. İdarə Heyətinin fəaliyyətinə onun Sədri rəhbərlik edir. İdarə Heyətinin sədri Bankın fəaliyyəti haqqında, o cümlədən Bank tərəfindən Strateji hədəflərin icrası barədə Müşahidə Şurası qarşısında hesabat verir.

1.4. İdarə Heyəti "Banklar haqqında" Azərbaycan Respublikası Qanunu, Azərbaycan Respublikası Milli Bankının təsdiq etdiyi "Banklarda korporativ idarəetmə standartlarının tətbiqi Qaydaları" və digər normativ-hüquqi sənədləri, "Azərbaycan Kredit Banki" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi və bu Əsasnamə əsasında fəaliyyət göstərir.

## 2. İdarə Heyətinin səlahiyyət və vəzifələri

2.1. İdarə Heyəti ümumilikdə Banka rəhbərlik edir və onun gündəlik fəaliyyətinə cavabdehlik daşıyır, həmçinin mühasibat uçotunun və hesabatının qüvvədə olan qanunların və beynəlxalq standartların tələblərinə uyğun təşkilini təmin edir.

2.2. İdarə Heyəti həmçinin Bankın struktur bölmələrinin fəaliyyətinə səmərəli rəhbərliyi və nəzarəti təmin edir. O, Banka etibar edilmiş pul vəsaitlərinin təhlükəsizliyinə cavabdehdir. Bankın əmlakina və kapitalına qayğı ilə yanaşır, qənaətcillik və gəlirlilik prinsiplərini əsas tutaraq onlarla özününkü kimi rəftar edir, daim Bankın dəyər artımını təmin edir.

2.3. İdarə Heyətinin üzvləri öz səlahiyyətlərini və vəzifələrini digər şəxslərə həvalə edə bilməzlər.

2.4. İdarə Heyəti bankın Nizamnaməsində nəzərdə tutulan və bu Əsasnamədə göstərilən aşağıdakı səlahiyyətlərə malikdir:

2.4.1. Bankın funksional icra strukturlarının fəaliyyətini tənzimləyən Əsasnamələri təsdiq etmək;

2.4.2. Bankın idarəetmə icra orqanlarının və struktur bölmələrinin işçilərinin funksiya və səlahiyyətlərini, hüquq və məsuliyyətlərini tənzimləyən vəzifə təlimatlarını təsdiq etmək;

2.4.3. Bankın icra orqanlarına və struktur bölmələrinə işçiləri seçmək və onları yerləşdirmək, onlarla əmək müqavilələri bağlamaq, həmin müqavilənin şərtlərini onların təsdiq olunmuş vəzifə təlimatlarına uyğunlaşdırmaq, onları işdən azad etmək və onlarla bağlanmış müqavilələrə xitam vermək;

2.4.4. Bankın cari fəaliyyəti ilə bağlı qərarlar qəbul etmək;

2.4.5. Müşahidə Şurasının təsdiqləməsi üçün Bankın təşkilatı strukturunu hazırlamaq;

2.4.6. Bankın strateji baxışının tətbiq edilməsini təmin etmək;

2.4.7. Bankın strateji planının hazırlanmasını və yerinə yetirilməsini təmin etmək;

2.4.8. Səhmdarların, deponentlərin maraqlarını və Bankın likvidliyini təmin etmək;

2.4.9. Hərəkətləri ilə Bankın gəlirliyini və Bank Kapitalının təhlükəsizliyini təmin etmək;

2.4.10. Qanunvericiliyə uyğun Bankın fəaliyyətini formalaşdıran qaydalar, təlimatlar və daxili əsasnamələr tərtib etmək;

2.4.11. Bankın struktur bölmələrinin hesabatlarının hazırlanmasında iştirak etmək;

2.4.12. Səhmdarların Ümumi Yığıncağında və Müşahidə Şurasında müzakirələr üçün Nizamnaməyə aid təkliflər və məlumatlar tərtib etmək;

2.4.13. Bankın struktur bölmələrinin fəaliyyətini təhlil və idarə etmək;

2.4.14. Bankın siyasətinin ümumi şərtlərinə dair Müşahidə Şurasına təkliflər vermək;

2.4.15. Bank əməliyyatlarının aparılması ilə əlaqəli olan sualların, banklararası müqavilələrin bağlanması, mühasibatın, hesabatlarla bağlı olan məsələlərin və digər daxili məsələlərin həllinə nəzarət etmək;

2.4.16. Səhmdarların Ümumi Yığıncağının verdiyi səlahiyyətlər çərçivəsində işçilərin işə qəbul edilməsini, onların ixtisasının artırılmasını, əmək müqavilələrinə aid məsələlərin həllini, işçilərin əmək haqqının ödənilməsini təmin etmək;

2.4.17. Bank adından hərəkət edərkən “dörd göz prinsipinə” riayət etmək.

2.4.18. bankın daşınan və daşınmaz əmlakının yenidən qiymətləndirilməsi üzrə qərar qəbul etmək;

2.4.19. bankın strategiyasının hazırlanmasında iştirak etmək;

2.4.20. kredit və zəmanətlərə görə götürülmüş əsas vəsaitlərin istifadəsi üçün balansa götürmək ya ondan istifadə prinsiplərini müəyyənləşdirmək;

2.4.21. iri kreditlər üzrə öz səlahiyyətləri daxilində qərarlar qəbul etmək;

2.4.22. yyətləri daxilində bank fəaliyyətinin daxili qaydalarını müəyyənləşdirib təsdiq etmək (Müşahidə Şurası Əsasnaməsində nəzərdə tutulan funksiyalar istisna olmaqla);

2.4.23. bankı tərəfdaşlar qarşısında təmsil etmək.

2.5. Müşahidə Şurası banka nəzarəti həyata keçirən zaman İdarə Heyətinin cari işlərinə qarışmır. Bununla belə, Müşahidə Şurası İdarə Heyətinin qərarlarını təftiş edə bilər.

2.6. İdarə Heyəti aşağıdakı əsas vəzifələri həyata keçirir:

2.6.1. Bankın strateji planının yerinə yetirilməsini təmin edir.

2.6.2. Səhmdarların və əmanətçilərin mənafelərini, habelə bankın likvidliyini qoruyur.

2.6.3. Bankın kapitalının qorunması və onun gəlirliyini təmin edəcək fəaliyyət göstərir.

2.6.4. Səhmdarların ümumi Yığıncağının, MŞ-nın və Milli Bankın bank fəaliyyətinin tənzimlənməsi barəsindəki normativ sənədlərin tələblərini yerinə yetirir.

2.6.5. Səhmdarların ümumi Yığıncağı və Müşahidə Şurasının iclasları üçün onun tələb etdiyi sənədləri hazırlayır.

2.6.6. Bankın struktur bölmələrinin əsasnamələrini və işçilərin vəzifə təlimatlarını müəyyən edir.

2.6.7. Bankın funksional icra strukturlarının işinə nəzarəti həyata keçirir.

2.6.8. Bankın cari fəaliyyəti ilə bağlı bütün məsələləri həll edir.

2.6.9. Korporativ idarəetmə üzrə Bazel Komitəsinin tövsiyəlrini və qanunvericiliyin tələb etdiyi digər vəzifələri həyata keçirir.

2.7. İdarə Heyəti üzvləri onların səhv fəaliyyəti və ya fəaliyyətsizlikləri nəticəsində banka dəymiş zərərə görə qüvvədə olan qanunvericiliyə müvafiq olaraq, maddi və mənəvi məsuliyyət daşıyırlar.

## 3. İdarə Heyətinin üzvlərinə tələblər

3.1. Qüvvədə olan müvafiq qanunların tələblərinə cavab verməyən şəxslər İdarə Heyətinin üzvü ola bilməzlər və Müşahidə Şurasının qərarı ilə üzvlükdən xaric olunmalı, növbəti ümumi yığıncaqda Müşahidə Şurasının bu qərarı təsdiq edilməlidir.

3.2. İdarə Heyətinin üzvləri aşağıdakı tələblərə cavab verməlidirlər:

- ali iqtisadi və ya hüquqi təhsilin və bank sistemində azı 2 (iki) illik iş stajının olması, yaxud ali təhsilin və bank sistemində azı 4 (dörd) il iş stajının olması;
- vətəndaş qüsursuzluğuna malik olması;

3.3. Aşağıdakı şəxslər İdarə Heyətinin üzvləri ola bilməzlər:

3.3.1. maliyyə vəziyyətinin pisləşməsi və prudensial tələbləri pozmaqla əlaqədar məcburi ləğv olunmuş, yaxud müflis elan olunmuş bankda ləğvetmə və ya iflas haqqında qərarın qəbul edildiyi tarixdən əvvəlki bir il ərzində bankın fəaliyyət strategiyasının müəyyən edilməsi və qərarların qəbul edilməsi proseslərində iştirak etmiş inzibatçı (belə şəxslər üç il ərzində başqa bankın inzibatçısı ola bilməzlər);

3.3.2. üç ildən az olmayan müddət ərzində başqası ilə əvəz edilməsi barədə Milli Bankın

tələbi ilə hər hansı bankın, filialın və ya şöbəsinin inzibatçısı vəzifəsindən azad edilmiş şəxs (işə bərpa olunması haqqında barəsində qanuni qüvvəyə minmiş məhkəmə qərarı olan şəxslər istisna olmaqla);

3.3.3. bankın inzibatçısı hüququndan qanunla müəyyən edilmiş qaydada məhrum edilmiş şəxslər;

3.3.4. bankın digər idarəetmə orqanının (səhmdarların ümumi yığıncağı istisna olmaqla) üzvü olan şəxslər;

3.3.5. başqa banklarda, xarici bankların yerli filiallarında, digər hüquqi şəxslərdə, o cümlədən banka aidiyyəti olan hüquqi şəxslərdə vəzifə tutan şəxslər (bankın payçı olduğu digər banklarda və hüquqi şəxslərdə Müşahidə Şurasının üzvü olması halları istisna olmaqla);

3.3.6. bankın inzibatçısı ilə qohumluq münasibətlərində olan şəxs – onun əri/arvadı, valideyni, o cümlədən ərinin/arvadının valideyni, babası, nənəsi, övladı, o cümlədən övladlığa götürülən, qardaşı və bacısı (bank şöbəsinin inzibatçıları istisna olmaqla);

3.3.7. dövlət hakimiyyəti və ya bələdiyyə orqanında qulluqda olan şəxslər (qanunvericilikdə nəzərdə tutulan istisna olmaqla);

3.3.8. Bankın səhmlərinin 20 (iyirmi) faizinə malik olan şəxslər.

3.4. Aşağıdakı hallarda İdarə Heyətinin üzvlüyünə Müşahidə Şurası tərəfindən vaxtından əvvəl xitam verilə bilər;

- digər inzibatçı orqana təyin olunması
- vəzifə borcunu qənaətbəxş yerinə yetirmədikdə
- öz xahişi ilə
- qanunvericiliyin müəyyən etdiyi digər hallarda

3.5. İdarə Heyətinin Sədri və onun müavinləri bir-birini əvəz edə bilərlər:

3.5.1. Səhmdarların Ümumi Yığıncağı çağrılanadək Müşahidə Şurası İdarə Heyətinin üzvlərindən birini İdarə Heyətinin Sədri təyin edir. Sədr İdarə Heyətinə başçılıq edir. İdarə Heyətinin Sədri ilə bərabər İdarə Heyətinin hər bir üzvü Müşahidə Şurasının iclaslarında Müşahidə Şurasının təklifi ilə iştirak edə bilər.

3.5.2. Müşahidə Şurası İdarə Heyətinin üzvlərindən İdarə Heyəti Sədrinin müavinlərini, ehtiyac olarsa, Sədri əvəzetmə ardıcıllığını göstərməklə təyin edir.

## 4. İdarə Heyəti Sədrinin məsuliyyəti

4.1.1. İdarə Heyətinin Sədri ("Sədr") İdarə Heyətinin idarəçilik fəaliyyətinə rəhbərlik edir və bu Əsasnaməyə əsasən öz vəzifə borcunu yerinə yetirmək üçün bütün səlahiyyətlərə malikdir.

Sədr öz vəzifə borcunu yerinə yetirərkən qanunvericiliyə və bu Əsasnaməyə əsasən hərəkət edir.

4.1.2. İdarə Heyəti Sədrinin fəaliyyəti aşağıdakılardan ibarətdir:

- İdarə Heyətinin işini təşkil edir və onun iclaslarına sədrlik edir;
- Səhmdarların Ümumi Yığıncağının, Müşahidə Şurasının və İdarə Heyətinin qərarlarının yerinə yetirilməsini təmin etmək;
- Bankı Azərbaycan Respublikasının və xarici dövlətlərin hakimiyyət orqanları ilə, hüquqi və fiziki şəxslərlə münasibətlərdə təmsil etmək;
- Səhmdarların Ümumi Yığıncağının verdiyi səlahiyyətlər çərçivəsində Bankın büdcəsini yerinə yetirilməsinə nəzarət edir, sazişlər bağlayır, etibarnamələr və Bank adından qanunvericilikdə müəyyən edilmiş zəmanətlər verir;
- Bank işçiləri ilə Bank adından əmək müqavilələri bağlayır, ştat cədvəlinə əsasən işçilərin əmək haqqının ödənilməsi üçün qərarlar qəbul edir;
- İdarə Heyətində Banka aid muzakirə edilmiş məsələlərin Müşahidə Şurasında baxılması təklifi ilə çıxış edir.

## 5. İdarə Heyətinin formalaşması və səlahiyyət müddəti

5.1.İdarə Heyəti 3 nəfərdən az olmamaqla, tək sayda üzvlərdən ibarət olmaqla, Səhmdarların Ümumi Yığıncağının iştirakçılarının ən azı 75%-nin iştirak etdiyi iclas tərəfindən, iclas iştirakçılarının 75% səs çoxluğu ilə seçilir.

5.2.İdarə Heyətinin üzvləri 4 ildən çox olmayan müddətə seçilirlər. İH üzvləri təkrar da seçilə bilərlər.

5.3.İdarə Heyətinin Sədri onun üzvləri içərisindən bütün dövr üçün Səhmdarların Ümumi Yığıncağı tərəfindən seçilir. İdarə Heyəti Sədrinin müavinləri İdarə Heyətinin Sədri tərəfindən təyin olunur.

5.4.İdarə Heyətinin Sədri və üzvləri seçilərkən aşağıdakı amillər əsas götürülür:

- Sədr və üzvlərin mütləq ən azı 3 il bank və ya oxşar kredit institutunda rəhbərlik təcrübəsi:
- iqtisadi, biznes və ya hüquqi təhsilin olması;
- peşəkar bilik və təcrübə;
- menecerlik və kollektivdə işləmək qabiliyyəti;
- qarşısına qoyduğu məqsədə çatmaq qabiliyyəti;
- sahibkar kimi düşünmək və fəaliyyət göstərə bilmək qabiliyyəti;

- işə yaradıcı yanaşmaq, yeni ideyalara malik olmaq və yeni ideyaları stimullaşdıra bilmək;
- vətəndaş qüsursuzluğuna malik olmaq;
- Müşahidə Şurası və Audit Komitəsi üzvləri ilə qanunvericiliklə müəyyən olunan qohumluq əlaqələrinin olmaması;
- dəqiq planlaşma, zəngin marketinq və ciddi nəzarət etmək qabiliyyəti;
- insanlarla tez ünsiyyətə girə bilmək və s.

5.5. İdarə Heyəti üzvlərinin hamısının iştirak etdiyi iclas kvorumlu hesab olunur və qərarlar adi səs çoxluğu prinsipi ilə qəbul edilir. İclasa İdarə Heyətinin Sədri sədrlik edir.

5.6. İdarə Heyətinin plan üzrə iclasları ayda 1 dəfədən gec olmayaraq keçirilir. İdarə Heyətinin növbədənkənar iclasları onun Sədrinin təşəbbüsü və ya İdarə Heyəti üzvlərindən hər hansı birinin tələbi ilə çağırılır.

5.7. İclaslarda qərarlar açıq səsvermə ilə sadə səs çoxluğu əsasında bir nəfər= bir səs prinsipi ilə qəbul edilir. Səsvermə zamanı bitərəf qalmağa icazə verilmir. İdarə Heyətinin katibi iclasa katiblik edir və iclasın nəticələri protokolla rəsmiləşdirilir.

5.8. İdarə Heyətinin Sədri və üzvləri aşağıdakı hallarda Səhmdarların ümumi yığıncağı tərəfindən vaxtından əvvəl geri çağırılırlar:

- vəzifələrinin öhdəsindən gəlmədikdə;
- digər seçkili orqanlara seçildikdə;
- öz xahişləri ilə;
- qanunvericiliyin müəyyən etdiyi digər hallarda.

## 6. İdarə Heyətinin iclasları

6.1. İdarə Heyəti iclasları üçün aşağıdakı prosedurlar təyin edilib:

6.1.1. İdarə Heyətinin iclasları İdarə Heyəti Sədrinin və ya digər üzvünün təşəbbüsü əsasında Sədrin yazılı qərarı əsasında, ayda azı bir dəfə olmaq şərti ilə keçirilir.

6.1.2. İdarə Heyətinin üzvləri iclaslarda şəxsən iştirak edillər;

6.1.3. Komitələrin, filialların və bankın digər struktur bölmələrinin üzvləri iclaslara dəvət edilə bilər;

6.1.4. İclasdan əvvəl, katib və ya onu əvəz edən şəxs, iştirakçıların qeydiyyatını aparır və iclasın səlahiyyətli olub-olmaması haqqında Sədrə məlumat verir.

6.1.5. İdarə Heyəti onun iclasında üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir. İclaslarda səsvermə şifai ifadə etmək yolu ilə həyata keçirilir. İdarə Heyətinin qərarları iclasda

iştirak edən üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səs hüququna malikdir. Üzvlərin səsvermə zamanı bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda İdarə Heyəti Sədrinin səsi həlledici sayılır.

6.1.6. İdarə Heyətinin üzvlərindən hər hansı biri səsvermədə bitərəf qalırsa, və ya iclaslarda dalbadal 3 (üç) dəfə iştirak etmirsə, İdarə Heyətinin Sədri və ya onu əvəz edən şəxs bu barədə Müşahidə Şurasını yazılı surətdə məlumatlandırır.

6.1.7. Hər bir iclasın katiblə və ya onu əvəz edən şəxslə imzalanmış protokolu olmalıdır.

6.1.8. İclasın protokolunda onun tarix, yeri, iştirakçıları, günd əliyi, səsvermələrin nəticələri haqqında məlumat olmalıdır. Bu protokol İdarə Heyəti Sədri tərəfindən imzalanmalıdır.

## 7. Qərar qəbuletmə səlahiyyətləri

7.1. İdarə Heyəti bankın cari fəaliyyəti ilə bağlı (Səhmdarların Ümumi Yığıncağı və Müşahidə Şurasının səlahiyyətlərinə aid olan məsələlər istisna olmaqla) hər cür qərar qəbul etmək səlahiyyəti vardır.

7.2. İdarə Heyətinin qəbul etdiyi kolleqial qərarlardan başqa, onun Sədrinin İH adından sərəncam və əmrlər vermək hüququ vardır.

## 8. İnzibatçıların işə qəbulu və azad olunması qaydaları

8.1. Bank "Banklar haqqında Azərbaycan Respublikası Qanunu"nun tələblərinə uyğun olaraq, inzibatçılar üçün aşağıdakı tələblər müəyyən edir:

8.1.1.Bankın Müşahidə Şurasının, Audit Komitəsinin sədri və üzvləri üçün – ali iqtisadi və ya hüquq təhsili, yaxud maliyyə məsələlərində ən azı 3 il iş təcrübəsinin olması;

8.1.2.Bankın İdarə Heyətinin Sədri və üzvləri, habelə bankın Daxili Audit Departamentnin Direktoru üçün – ali iqtisadi və ya hüquqi təhsili, yaxud Milli Bank tərəfindən təsdiq edilmiş siyahıya əsasən ali təhsilə malik olan və bank sistemində 2 illik iş stajının olması;

8.1.3.Bankın Maliyyə Menecmenti Departamentinin Direktoru - Baş Mühasib – ali iqtisadi təhsilin və bankda mühasib vəzifəsində azı 2 illik iş stajının olması və ya orta ixtisas təhsilinin və mühasib vəzifəsində azı 5 illik iş stajının, o cümlədən bank sistemində azı 2 illik iş stajının olması. Bu tələblər baş mühasibin imza hüququ olan müavininə də şamil edilir.

8.2. Bankın inzibatçıları mütləq 6.1- bəndində göstərilən kriteryalara cavab verdikdə, inzibatçı təyin oluna bilərlər. Bu kriteriyalara cavab verməyən inzibatçılar yalnız Azərbaycan Milli Bankının icazəsi ilə inzibatçı təyin edilə bilərlər.

8.3. Aşağıdakı şəxslər Bankın inzibatçısı ola bilməzlər:

8.3.1.Maliyyə vəziyyətinin pisləşməsi və prudensial tələbləri pozmaqla əlaqədar məcburi ləğv olunmuş, yaxud müflis elan olunmuş bankda ləğvetmə və ya iflas haqqında qərarın qəbul edildiyi tarixdən bir il əvvəl bankın inzibatçısı işləmiş şəxs (belə şəxslər üç il ərzində başqa bankın inzibatçısı ola bilməzlər);

8.3.2.Üç ildən az olmayan müddət ərzində başqası ilə əvəz edilməsi barədə Milli Bankın tələbi ilə hər hansı bankın, filialın və ya şöbənin inzibatçısı vəzifəsindən azad edilmiş şəxs (işə bərpa olunması haqqında barəsində qanuni qüvvəyə minmiş məhkəmə qərarı olan şəxslər istisna olmaqla);

8.3.3.Məhkumluğu olan, keçmişdə mülkiyyət əleyhinə və iqtisadi fəaliyyət sahəsində ağır və xüsusilə ağır cinayətlərə görə cinayət məsuliyyətinə cəlb edilmiş şəxslər, habelə barələrində mülkiyyət əleyhinə və iqtisadi fəaliyyət sahəsində ağır və xüsusilə ağır cinayətlərin istintaqından müddətin keçməsinə və ya amnistiyaya əsasən xitam verilməsi, müvafiq vəzifəni tutması və ya peşə fəaliyyəti ilə məşğul olması, üzərində məhkəmə qərarı ilə qadağa qoyulması, məhkəmə qaydasında müflis elan edilməsi faktları olan şəxslər;

8.3.4.Bankın inzibatçısı hüququndan qanunla məhrum edilmiş şəxslər;

8.3.5.Bankın digər idarəetmə orqanının üzvü olan şəxslər;

8.3.6.Bankda digər vəzifə tutan şəxslər;

8.3.7.Müşahidə Şurasının üzvü üçün - üçdən çox müəssisənin və digər hər hansı bir bankın idarəetmə orqanlarının üzvü olan şəxslər;

8.3.8.Bankın İdarə Heyətinin üzvləri, baş mühasibi (mühasibat xidmətinin rəhbəri), daxili audit bölməsinin rəhbəri, bank filialının, şöbəsinin rəhbəri və baş mühasibi üçün - başqa banklarda, xarici bankların yerli filiallarında, digər təşkilatlarda, o cümlədən banka aidiyyatlı şəxslər olan təşkilatlarda vəzifə tutan şəxslər (bankın payçı olduğu digər banklarda və təşkilatlarda Müşahidə Şurasının üzvü olması halları istisna olmaqla);

8.3.9.Nigah və ya qan qohumluğu nəticəsində bankın inzibatçısı ilə qohumluq münasibətlərində olan şəxs - onun əri/ arvadı, valideyni, o cümlədən ərinin/arvadının valideyni, babası, nənəsi, övladı, o cümlədən övladlığa götürülən, qardaşı və bacısı (bank şöbəsinin inzibatçıları istisna olmaqla);

8.3.10. Dövlət hakimiyyəti və ya bələdiyyə orqanında qulluqda olan şəxslər (qanunvericilikdə nəzərdə tutulan hallar istisna olmaqla).

8.4. İnzibatçı vəzifəsinə nəzərdə tutulan təyinatlar qanunla müəyyən edilmiş tələblərə cavab vermədikdə Milli Bank onların dəyişdirilməsini tələb edə bilər.

8.5. Bankın İdarə Heyətinin sədri və üzvləri, daxili audit bölməsinin rəhbəri, bankın baş mühasibi (mühasibat xidmətinin rəhbəri) və onun imza hüququ olan müavinləri, habelə yerli və

xarici bankların yerli filiallarının rəhbərləri və baş mühasibləri (mühasibat xidmətinin rəhbəri) və onların imza hüququ olan müavinləri Milli Bankda attestasiyadan keçirlər. Bu təyinatlara Milli Bankın müsbət rəyi alındıqdan sonra həmin inzibatçılar öz vəzifələrinin icrasına başlaya bilərlər.

8.6. Bankda inzibatçı vəzifəsinə namizədlər aşağıdakı formada irəli sürülür:

8.6.1.Müşahidə Şurasının, Audit Komitəsinin Sədr və üzvləri- Səhmdarların Ümumi Yığıncağı tərəfindən;

8.6.2.İdarə Heyətinin Sədr və üzvləri- Səhmdarların Ümumi Yığıncağı və ya Müşahidə Şurası tərəfindən

8.6.3.Daxili Audit Departamentinin Direktoru və işçiləri- Audit Komitəsi və ya Müşahidə Şurası tərəfindən

8.6.4.Maliyyə Menecmenti Departamentinin Direktoru, Baş Mühasib- Müşahidə Şurası və ya İdarə Heyəti tərəfindən

8.7. Bankın inzibatçısı vəzifəsinə namizədlər bu Qaydaların 6.1-ci bəndinin tələblərinə uyğun gəldiyi halda, ilk növbədə, Müşahidə Şurasında müzakirə olunur (Müşahidə Şurasının Sədr və üzvləri istisna olmaqla).

8.8. Müşahidə Şurasının, Audit Komitəsinin, İdarə Heyətinin Sədr və üzvləri Səhmdarların Ümumi Yığıncağı, Daxili Audit Departamentinin Direktor və işçiləri Audit Komitəsi ilə razılaşdırmaqla, Müşahidə Şurası, Maliyyə Menecmenti Departamentinin Direktoru isə Müşahidə Şurası ilə razılaşdırmaqla İdarə Heyəti tərəfindən təsdiq olunur.

8.9. İnzibatçılarla əmək müqavilələrini Bankın Müşahidə Şurasının Sədri (özü istisna olmaqla) qüvvədə olan Əmək Məcəlləsinə uyğun olaraq bağlayır.

8.10. İnzibatçılar aşağıdakı hallarda tutduğu vəzifədən azad edilir:

8.10.1. Bu Qaydaların 5.3-cü bəndində olan hallar baş verdikdə;

8.10.2. İnzibatçının təyin olunmasına Azərbaycan Milli Bankı icazə vermədikdə;

8.10.3. İnzibatçı digər idarəetmə orqanlarına inzibatçı seçildikdə və ya təyin olunduqda;

8.10.4. İnzibatçı ona həvalə olunmuş vəzifələrin öhdəsindən gəlmədikdə;

8.10.5. İnzibatçı vəfat etdikdə, yaxud bu və ya digər səbəbdən öz vəzifələrini yerinə yetirə bilmədikdə;

8.10.6. İnzibatçının öz xahişi ilə;

8.10.7. Əmək Məcəlləsi və “Banklar Haqqında Azərbaycan Respublikası Qanunun”da nəzərdə tutulan digər hallarda.

8.11. İnzibatçıların işdən azad edilməsi Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq, həyata keçirilir.

8.12. Bank işdən azad olunma səbəbindən asılı olmayaraq, inzibatçının artıq öz səlahiyyətlərini yerinə yetirə bilməməsi barədə 10 gün müddətində Azərbaycan Milli Bank ına məlumat verir.